

Məzahir ƏHMƏDZADƏ

# GÖYÇAY – GÖYLƏRDƏN GƏLƏN ÇAY...

**Keçmişlərin məşhur bir rus mahnısı var: "Hardan başlayır vətən?". Bu sualın, bu fikrin çalarları hansı yöndən qaynaqlanıb cavablansa da, sonunda elə birbaşa Vətənə bağlılıq, Vətənə böyük sevgi hisləri ilə bütünləşir. Düşündüyün, sevdiyin, fəxr etdiyin nə varsa Vətənin özüdür. Vətən sevgisinin sərhədi olmaz ki. O bir ağcaqayın ağacının kölgəsindən, qoxusundan da başlaya bilər, böyük şairimiz Məmməd Arazın "qayasında mamır!!!" olmağından da...**

İndi mən keçid edirəm son dövrlər aktuallaşan bir məsələnin ictimai rezonansına. Təbii, Vətənin hər qarış torpağı bizim üçün əziz, doğmadır və belə də olmalıdır. Vətənin Ana ilə sinonimləşməsi də bu bəşəri duyğunun, fəlsəfənin müqəddəsliyə işarəsi və simvoludur. Yaşadığın evi, küçəni, məhəlləni, kəndi, şəhəri... sevmək onun adamlarını və ağaclarını, onun başqa nəyi varsa hər şeyini yaddaşına köçürmək, bəzən kədərlənmək, bəzən sevinmək, bəzən ağrımaq, bəzən xoşbəxt olmaq - bütövlükdə bir Vətən sevgisi, hər gün oxunan vətən nəğməsidir.

### Bu mənada

***Göyçay şəhəri, Göyçay rayonu da Vətənin həm adi, həm də müstəsna məkanıdır. Mən zaman-zaman bu məsələlərə bir yazar olaraq yaxınlaşmağa çalışmışam, oxucuları reallıqlara səsləmişəm, həm qədimlik, həm də müasirlik, inkişaf baxımından ayrıca şəhər statusuna layiqli namizədliyinə işarə vurmuşam. "Gələcək üçün qorumalı", "Şahzadənin yubileyi", "Bir şəhərin tarixinə interpretasiya", "Göyçay - onu sevənlərin şəhəri"...***

Bu gün daha da inkişaf edib müasirləşən, gözəlləşən Göyçay şəhərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəsna qayğı və diqqəti bütün sahələrdə aydınca əks olunur. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə bütün görüş və yığıncaqlarda görülən işlərin əhəmiyyətindən və qarşıda duran vəzifələrdən danışır, nikbin proqnozlar bölüşür, sakinlərin də ölkə rəhbərinə olan sonsuz minnətdarlığı böyük sevinclə qarşılanır. Yeri gəlmişkən, idarəetmədə təmkinli, eyni zamanda çevik qərarlar qəbul edən icra başçısı müəyyən çətinliklər və əziyyətlər hesabına olsa da nəticədə cənab prezidentin mövqeyinə sadiqliyini nümunəvi fəaliyyətlə təsdiqləyir və hər kəsdə yaşadığı rayonu sevmək, vətəni sevmək anlayışını birlikdə yaşamaq, gözəl əməllərlə töhfə vermək kimi hisslərə qovuşmağın səadətini aşılayır. Eyni zamanda ağsaqqal, ziyalı, üstün uğurlara yol açan adi vətəndaş sözünü hər gün dinləməkdən yorulmayan, kollegial dövlət məmuru kimi də diqqəti



cəlb edir. Köhnə tikililərin yerində modern binaların, qurğuların ucaldılması, paytaxtdan sonra ilk dəfə qurulmuş mərkəzi yeraltı keçidin yeni görkəmdə istifadəyə verilməsi, Əli Kərim parkının müasir yenilənməsi, şəhər stadionu, küçələr, park və meydanlar rayon mərkəzinin - Göyçay şəhərinin 70-ci illərdəki şöhrətinin yeni görkəm və biçimdə təqdimidir. Bütün bu tədbirlər Azərbaycan Respublikası Prezidentinin qayğı və diqqətinin rayon rəhbərliyi tərəfindən məqsədəuyğun formada reallaşması deməkdir.

**Söz düşmüşkən bunları da yada salmaq lazımdır. Stadionun yenidən qurulması və digər məsələlərdə əslən göyçaylı olan milyarder iş adamı Fərhad Əhmədovun da təşəbbüskarlığı və xeyriyyəçiliyi danılmazdır. Başqa xarici ölkələrdə və Bakıda yaşayan imkanlı göyçaylılardan fərqli olaraq onun gördüyü işlər rayon rəhbərliyi və sakinlər tərəfindən rəğbətlə qarşılanır.**

Son illərin inkişaf faktları çoxdur, bir qəzet məqaləsinin həcmini aşıbdaşan məsələdir. Eyni zamanda rayon rəhbərliyinin aradan qaldırılması üçün az qala hər gün can atdığı, mübarizə apardığı nöqsanlar da yox deyil. Bunlardan da söz açmaq lazım gələcək. Demokratiya nə qədər şirin nemət olsa da, bütün xoşagəlməz presidentlərə də yol açır, elə mətbuatımızda olduğu kimi. Hər halda bütün çətinliklərə qanunlar vasitəsilə sinə gərib həqiqətin qələbəsini təmin etmək lazımdır.

Hiss etdinizsə, arada Göyçayın şəhər statusuna layiqliyinə də işarələr görünür. Bu səbəbdən də bəzi faktlara diqqət yetirmək zərurəti yaranır. Birincisi budur ki, Göyçay respublikada yeganə rayondur, onun bütün kəndlərinin əhalisi qədər, bəlkə də bir az da artıq təkcə mərkəzdə faiz çoxluğu mövcuddur. Təəssüflənsəm də açıqlamaq istəmədiyim bir səbəbə görə bunları yazmayacaqdım. Ancaq telefon zəngləri, ziyalı dostların təəccüb doğuran sualları... Bu rayondan




söz düşəndə nə vaxta qədər nardan - nardançadan bəhs edən yazıları oxumaq, sujetlərə baxmaq olar? Daha az qala bütün dünyaya məlumdur ki, Göyçay elə həm də nar deməkdir.

### Şəhərin son illər sürətli inkişafı,

**özünəməxsus bir gözəlliklə modernləşməsi fonunda tarixə də ekskurs edilməlidir. Son illər bu rayondan söz düşəndə əvvəlcə rayon mərkəzinin, Göyçay şəhərinin tarixindən, yaşından söhbət açılır. Bir neçə qədim binanın, eləcə də 1901-ci ildə tikilən məscidin, "Yer hamamı" deyilən qurğunun tarixi abidə kimi təqdimatından sonra belə məlum olur ki, Göyçay şəhərinin yaşayış məntəqəsi kimi mövcudluğu uzaqbaşı 250 ilə gedib çıxır.**

**Ancaq şəhərin yaşını 250, ən qədim kəndlərininsə yaşını 400-500 il civarında müəyyənləşdirən diletant "mütəxəssislərin" vətəndaşlıq mövqeyinə də şübhə ilə yanaşmalı olursan. Tarixçilərin, arxeoloqların məsuliyyətini mən də öz üzərimə götürmək fikirində deyiləm. Ancaq bəzi fakt və məlumatlar tarixi və intuitiv yanaşma tələb edir ki, bunlarsız da mümkün olmur.**

Əvvəlcə elə Göyçay şəhərinin özündən başlayaq. Bu şəhər əsasən, Göyçay çayının sağ sahilindən genişlənərək böyüyüb indiki görkəmini alıb. Əsl şəhər quruluşu planlı paralel küçələr çaydan təxminən 400-500 metr kənarda formalaşır. Bu həqiqətən 250 ildən bərinin inkişafıdır. Bəs bundan əvvəl buralarda yaşayış olmayıbmı? Olub. Hələ ən yaxın tarixi götürsək qədim Alban dövlətinin mövcudluğu illərinə gedib çıxır. Bir neçə fakt bunu sübut edir. Göyçay çayının sağ-sol dağ silsilələrində genişliyə, ucsuz-bucaqsız düzənliyə çıxdığı ərazinin başlanğıcında böyük bir qəbiristanlığın qalıqları vardı. Başqa bir qəbiristanlığın qalıqları isə indiki şəhər ərazisinin Ağdaş rayonu istiqamətindəki qurtaracağının 150-200 metrliyində 40-45 il bundan əvvəllərə kimi dururdu. İndi heç biri yoxdur. Qalıqlar torpaq altındadır. Çayın sahilinə yaxın son dağ silsiləsinin düzə - arana açıldığı yerdə əsrlərdən bəri mövcud olan qəbiristanlıq və onun




qalıqları burada sahil boyu yerləşən kiçik bir şəhərin tarixçəsini təsdiqləyir. İnsanlar qədim dövrlərdə yaşayış məskənlərini ilkin olaraq suya yaxın yerlərdən seçiblər. Bunsuz qurmaq və yaşamaq mümkün deyildi. Şirvanda ən əlverişli ərazilərdən biri də məhz bu yerlər olub.

...Göyçay çayı kənarında 4 km məsafə boyu kiçik bir şəhərin hələ orta əsrlərdən mövcudluğu dəqiqdir. Bu şəhər Alban dövlətinin təşəkkülü dövründə müəyyən inkişafda olub. Paytaxt Qəbələyə əlverişli yollar buradan keçirdi. Çay kənarı və Əlvan dərəsi ilə. Sözsüz ki Qəbələyə uzaq ellərdən gələnlər az deyildi. Tacirlər və başqa yolçular dağlara qalxmazdan qabaq istirahət edib güc toplamalı idilər. Bax onda indiki Göyçayın həmin ərazisindəki kiçik şəhərin karvansarayları, bu şəhərdə yaşayıb çalışan dəmirçilər, nalbəndlər və başqa sənətkarlar kara gəlirdi. Bağ-bağatlı Göyçay kəndlərinin meyvələri, digər ərzaq məhsulları bu şəhərdə satılırdı, burada olmayan mallara dəyişdirilirdi. Böyük tikililəri və qurğuları olmasa da, bura qaynar bir şəhər idi. Güman ki, müəyyən dövr ərzində Surxay xan tərəfindən idarə olunurdu.

Müasir Göyçayın ən böyük küçəsi Nizami Gəncəvinin adını daşıyır. Təsvir etdiyimiz həmin o qədim şəhərin ən böyük və geniş yaşayış massivi buradır. Dahi Nizaminin müharibə üzündən gecikən 800 illik yubleyinə qədər, yəni bu yubiley ərəfəsində bura Nizaminin adının verilməsinə qədər bilirsiniz bu küçə necə adlanırdı? Sadəcə Qəbələ. Qələbə yox ha, Qəbələ. İxtiyarların söylədiklərinə görə üstündən 10-15 il keçənə qədər də Nizami küçəsi deməyə öyrəşə bilməyərək Qəbələ küçəsi deyilirmiş. Mən heç də tarixi gerçəkliklərdə mistika axtarmıram. Ancaq kimsə deyə bilərmi ki, qonşu Ağdaş, İsmayıllı və ya Qəbələ şəhərlərində Göyçay adlı küçə olub. Bəs onda burada Qəbələ adı niyə yaşayıb və sonradan küçə adına çevrilib?

### Göyçay o zamanlar

qədim Alban dövlətinin paytaxtı Qəbələnin forpostu idi. O biri qəbiristanlıqdan götürülüb indi Göyçay Diyarşünaslıq muzeyində çox az bir qismdə saxlanılan eksponatların da yaşı islamdan öncəki dövrləri əhatə edir.

Burası belə.

***Göyçayın Qaraman (Karaman), Ləkçıplaq, Qarabaqqal, Hüngütlü (Hunqutlu), Qaraxıdır, Mırtı, Alpout, Bəydövül və başqa qədim kəndlərinin yaşı 400-500 yox, ən azı 1700-1800 ildir. Ərəb, Ərəbşahverdi, Ərəbcəbirli, Mirzəhüseynli kimi "orta yaşlı" kəndlərin yaranması isə bu yerlərdə islam dininin yayılması dövrünə təsadüf edir. Ən azı 1100-1200 il! Özü də bu kəndlərin əksəriyyətində Xilafət ordularından çoxlu sayda "qopub" qalanlar olub. Onlar əsrlərlə öz nəsillərini artıraraq az qala zəmanəmizə qədər gəlib çıxıblar. Danışıq dilləri türkcələşsə də, ərəb tələffüzü müəyyən elementləri ilə hələ də yaşamaqdadır. Təkrar edirəm: mistika axtarışında deyiləm. Ancaq bütün bunlar da elə-belə göydən düşməyib.***

Söz vətəndən, vətən tarixindən başlayanda daha çox məsuliyyətli olmalıyıq. İndi sovet dövrü deyil ki, İqrar Əliyevin fars-rus modelli "Azərbaycan tarixi" kitabından kənara çıxa bilməyək.

İndi də dönək az qala musiqi kimi səslənən Göyçay adının haradan götürülmasinin konkret mənasına. Yuxarıda qeyd etdiyim kimi bu şəhər göy sulu gözəl bir çayın kənarında salınıb. Əlbəttə, vətən sevgisi, yurd doğmalığı insanı müəyyən qədər nostaljiyə də çəkir, eyni zamanda bədii-poetik ovqata da kökləyir. Elə bu səbəbdən də bir zamanlar yazırdım ki... Adını minillərin uzaqlığından yol gələn o göy sulu çaydan alıb Şirvana işıq salan şəhər! Böyüyən, ucalan şəhər! Göylərdən, qarşı dağlardan mavi bir xəyal kimi görünüb də büsatına sığal çəkən bi gözəl çay doğmaca anandır sənin alıb qoynuna şəhərim! Göy çaydır bu. Axar göy çay, üzər göy çay - uzaq bir yol gedər, axıb bu şəhəri əzizləyər, başına dolanıb ulu bir nağıl danışar, şirin bir nəğmə oxuyar. Adından ad almış bu şəhər bu nağıla baş qoyub dadlı bir yuxuya gedər. Bu nəğməyə üz tutub erkən-erkən oyanacaq bu şəhər...

Sabahın xeyir, gözəl şəhərim, şirin şəhərim, gün aydın olsun! Sənə sözüm var, gözəl Göyçayım! Sən bu çayın, mən də sənin oğlunam axı. Həmişə demişəm, yenə də deyirəm: ağlım kəsəndən sənin aşiqin olmuşam,



səni dəlicəsinə sevmişəm. Qəlbimin döyüntüsünü eşidirsənmi doğma şəhər?.. Sənin bu gözəlliyini görüb ürəyim atlanır, uşaq kimi sevinirəm. Göylərə ucalan xan çinarların, qız kimi bəzənən telli qovaqların, izdihamlı küçə və meydanların, park və bağların, yaraşığın, əzəmətin və zəhmətkeş, fədakar, vətənpərvər sakinlərin... Bütün bunlar sənə necə də yaraşır doğma Göyçayım!

...Və elə indicə böyük şairimiz Əli Kərimin sənin Ana qucağına - Göyçay çayına həsr etdiyi o gözəl, o qəribə, o nostalji şeiri də xatırlayıram.

*Bu, Göy çaydır, oğlanlarım, göy dalğalı.*
*Bax o dağlar başındakı mavi göydən axıb gəlir.*
*Çox çimmişəm bu çayda mən, sizinlə də gəlin çimim.*
*Tökülüşdük suya bir-bir,*
*Uşaq etdi sular məni.*
*O ki vardı batdım, çıxdım,*
*Övladlarım yaşındaydım, onlar uşaq mən uşaqdım.*
*Çimməyimiz çəkdi bizim,*
*Günəşin al şüaları göy sularda uzanana,*
*Aramızda rast gəlmədik yorulana, usanana.*
*Başqa bir vaxt indi çoxdan*
*"Daha bəsdir, ay uşaqlar", -*
*Söyləməyim hazır idi.*
*İndi mənim özümə də*
*Bir təpinən lazım idi.*
*Uşaqlar çox sevindilər,*
*Göz vurdular bir-birinə:*
*"Kefdir bu gün, dinmə barı!"*

Bəli mənim şəhərimin anası, mənim şəhərimin tellərini oxşayan, yuxularına rahatlıq gətirən Göyçay çayı bir zamanlar elə dağlarla, meşələrlə, göylərlə yarışa girirdi öz gözəlliyi ilə. Hələ sovet dövründə 80-ci illərin ortalarından başlayaraq bu çayın istismarını kor-təbii hala gətirməyə başladılar. Çaya kənardan müdaxilələr də çoxaldı. Göyçay çayı öz gözəlliyini itirməyə başladı, suları bulanıqlaşdı, sahilləri yöndəmsiz hala düşdü. Hərbi-strateji əhəmiyyətli körpünün özü də bu plansız müdaxilələrə tab gətirmədi.

Çox şeylər oldu. Mən özüm də vətəndaşlıq mövqeyində duraraq bir sıra rəhbər vəzifəlilərlə üz-üzə gəlməli oldum. 30-35 il bundan əvvəl başladığım "Göyçay çayını qorumalıyıq" təşəbbüsümə qoşulanlar təəssüf ki, gözlədiyim qədər olmadı. Meydanda tək qalmaq məni heç vaxt qorxuzmazdı. Məni titrədən bu gözəl çayın gələcək taleyi və bəzi fürsətcillərin qanunsuz hərəkətləri nəticəsində yaranan fəsadların onun adına, sel daşqınlarına transfer edilməsi idi. Çay vəhşi müdaxilələrdən məcrasını itirib xilası üçün çırpınmasaydı acı nəticələr də omayacaqdı. Minillərin gözəl çayının nə günahı?

**Sonralar günahkarlar cəzalandı. Hansı meyarlarla, hansı qanunlarla deyə bilmərəm. Ancaq müşahidələrim və gördüklərim belə oldu ki, daha çox ziyan vuranlar sivişib aradan çıxa bildirlər. Ən az texniki ziyanı olan, məsələn ATF adlı müəssisə az qala əksəriyyətin əvəzinə cərimələndi. Haqsızlığın bu dərəcədə sərbəstləşməsi respublika miqyasında bir sıra yol-tikinti layihələrində nümunə göstərən müəssisənin işgüzar nüfuzuna və maliyyəsinə xeyli ziyan vurdu. Halbuki mənim bu gözəl çayım həmin müəssisənin yaranmasından 25-30 il öncədən sözün əsl mənasında yağmalanırdı. Rəsmi şəkildə soruşulsa həmin o "zəhmətkeş oğrular" haqqında əlavə məlumat verə bilərəm. Güman ki, verəcəyəm də.**

### Son vaxtlar

Göyçay çayının şəhərə yaxın məsafələrindən başlayaraq çox işlər görülüb və bu işlər yeni formatda davam etdirilir. Cənab Prezidentin göstərişinə əsasən çayda sahilbərkitmə, sel-sulardan qoruma, körpülərin təmiri yüksək səviyyədə təmin edilməklə yanaşı (Meliorasiya və Su Təsərrüfatı ASC), çayın istismarında baş verən qanunsuzluqlar da aradan qaldırılmışdır. İndi daha çox irəli baxılır. Rayon rəhbərliyi Göyçay çayının şəhər sahili boyunca yeni və müasir parkın salınması, burada böyük bir istirahət mərkəzinin yaradılması ideyasını reallaşdırmağa çalışır. Planlaşdırma və digər ilkin tədbirlər çaya və çay sahillərinə əlavə müdaxilələrin də qarşısını almaqdadır. Sahilboyu yaşayan bəzi sakinlər əlavə zolaqlar zəbt etmək istəsələr də rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadənin görüş və söhbətlərindən və bu yerlərin perspektiv inkişafından bir növ həvəslənərək əsas məsələni bilincə sevinmiş, hətta öz köməkliklərini də təklif etmişlər. Ancaq yenə də bütün işlər istənilən, arzulanan səviyyədə getmir. Parkın çay boyunca uzanaraq əvvəlcədən müəyyənləşmiş sərhədlərinə qədər olan ərazidə başqa bir problem yaranmışdır. Nəinki Göyçayda, Şamaxıda və başqa yerlərdə özünün xeyriyyəçilik əməlləri ilə ad qazanmış keçmiş millət vəkili, milyonçu Elxan Süleymanov park üçün nəzərdə tutulan 3 hektara yaxın yeri sənədsiz-filansız o möhtəşəm villasının ətrafına qataraq meyvə bağı salmış və buranı dəmir lövhlərlə hasarlamışdır. Elxan müəllimin bağ salmaq ideyasında da xeyirxahlıq, xoş niyyətlilik görmək olardı. Ancaq bu yer ona məxsus olmadığından indiki halda çox şeylərə şübhə ilə yanaşmalı olursan.

Bu məsələ tənzimlənəcək, başqa yolu yoxdur da.

**Ancaq qurulmaqda, tikilməkdə həmin parkın əhəmiyyəti həm də ona görə də daha çox diqqət çəkir ki, bu, sayca şəhərin 3-cü böyük parkı olacaq. Bağlar, müasir meydanlar, yaşıllıqlar, modern qurğular da öz yerində. Göyçaylılar həm də rayona şəhər statusu almaq üçün ali rəhbərliyə müraciət etmək fikirindədirlər. Çünki, şəhərin qədim tarixi ilə yanaşı, müasir inkişafı, mədəni səviyyəsi və digər atriburları da buna geniş imkan açır. İnsanların gözəl niyyəti, sevgisi heç vaxt cavabsız qalmır. Həm də bu xoş məramlı arzu və istək dünya siyasətində öz uğurları və nüfuzu ilə seçilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanacaq.**

***Qeyd: Məqalənin fotoları karantin rejiminin tətbiqindən əvvəl çəkilib.***